**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSİ**

**20 Yanvar faciəsinin 20-ci ildönümü münasibətilə**

# TARİXİN QAN YADDAŞI

**(metodik vəsait)**

**B A K I - 2 0 10**

## Tərtibçidən

XX əsr tarixinə insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı iiin 20 Yanvar hadisələrinin 20-ci ildönümü ərəfəsindəyik. Xalqımızı qəlbən sarsıtmış bu faciənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif rəylərə rast gəlinsə də, bütün əks mövqelər məhz bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

Biz kitabxanaçıların da  ən ümdə vəzifəsi xalqımızın bu qanlı olayla bağlı keçirdiyi müxtəlif tədbirlərdi ki, bunlardan biri də hazırladığımız metodiki vəsaitdir. Kitabxanaçılara təqdim etdiyimiz bu metodik vəsaitdə əsas məqsədimiz 20 yanvar faciəsinin dəhşətlərini oxucular arasında  təbliğindən ibarətdir.  Metodiki vəsait əsasən iki bölmədən ibarətdir.

I Bölmə. 20 yanvardan başlanan faciə.

II Bölmə. Uşaq kitabxanalarında 20 Yanvar faciəsinə həsr olunmuş tədbirlər.

Metodik vəsaitdən əsasən məktəb, kollec, lisey, gimnaziya və s. kitabxanaların kitabxanaçıları istifadə edə bilərlər.

## I Bölmə: 20 Yanvardan başlanan faciə.

**Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli, Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 1990-cı ilin qanlı yanvarından **20** il ötür. Həmin gün azadlıq, istiqlaliyyət uğrunda küçələrə, meydanlara çıxan Azərbaycan xalqına qarşı törədilmiş ağlasığmaz terror aktı dəhşətli bir cinayət hadisəsi kimi tarixə düşmüşdür. Həmin gün müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbiri Beynəlxalq İnsan Haqları Bəyannaməsinin və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq çökməkdə olan sovet reyimi son günlərində bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə təpədən-dırnağa qədər silahlanmış sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə və Azərbaycanın bir sıra digər rayonlarına yeridilərək Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. O vaxt SSRİ rəhbərliyinin açıq şəkildə Ermənistanın respublikamıza qarşı ərazi iddialarını dəstəkləməsi və Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yeritməsi xalqı qəzəbləndirmişdi. Torpaqlarının bir qarışını da düşmənə qıymayan xalq ayağa qalxmış və bu ayrı-seçkiliyə, ədalətsizliyə dözməyərək,”Torpaqdan pay olmaz!” deyərək etiraz səsini ucaltmışdı. Öz konstitusiya hüquqlarının bərqərar ediməsi tələbi ilə küçə və meydanlara çıxan dinc əhali qəflətən güllələboran edildi, insanlar hətta faşistlərin də törətmədikləri qaddarlığa məruz qaldılar. Küçə və müydanlar insan qanına boyandı. Yüzlərlə dinc əhali qətlə yetirildi, ağır yaralandı, ömürlük şikəst oldu. Sovet reyiminin bu qanlı terror aktı barədə bütün dünyaya məlumat yayıldı.

1987-ci ildə Heydər Əliyev min hiylə və məkrlə keçmiş SSRİ-nin rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycanın düşmənlərinin, ölkəmizə qarşı torpaq iddiasında olan nankor qonşumuzun sanki əlləri-qolları açıldı. Bununla da Azərbaycanın tarixində növbəti dəhşətli anlar mərhələsi başlandı. Heydər Əliyevin

hakimiyyətdə olduğu dövrdə Azərbaycan torpaqlarına təcavüz planlarını gerçəkləşdirə bilməyən qüvvələr fəallaşaraq öz işğalçılıq niyyətlərini həyata keçirməyə başladılar. Bu işdə keçmiş SSRİ rəhbərliyinə arxalanan təcavüzkar Ermənistan Azərbaycan ərazilərinə iddialarını daha həyasız şəkildə irəli sürürdü.

Bu haqsızlığa etiraz edən xalqın səsini boğmaq üçün qanlı terror aktına əl atan Sovet rejimi Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmətdə olan erməniləri respublikamızın üzərinə göndərdi. Sovet ordusunun şəhərə girməsi Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi, SSRİ Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı, eləcə də keçmiş SSRi-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun razılığı ilə olmuşdur. Azərbaycanı sovet imperiyasının buxovlarında saxlamaq, sovet reyiminin hegomonluğunu hələ uzun müddət davam etdirmək və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu yeridilmişdi. Sonradan məlum oldu ki, xalqın haqq səsini batırmaq üçün 35 minlik ordu yeridilibmiş.

Azərbaycan xalqına divan tutulması üçün SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin hazırlayıb həyata keçirdiyi əməliyyatda xüsusi təyinatlı “ALFA” və SSRİ DTK-nın “A” təxribat qrupları əsas vəzifələrin icraçıları olublar. Mixail Qorbaçov başda olmaqla Sovet imperiyasının digər rəhbərləri də milli ayrı-seçkilik bəhanəsindən istifadə edərək öz çirkin niyyətlərini həyata keçirdilər. Guya Bakıya yeridilən qoşun hakimiyyəti zorakı yollarla ələ keçirmməyə çalışan 2 millətçi ekstremistlər”i zərərsizləşdirəcək və hərbçi qulluqçuların ailələrini qoruyacaqmış. Bu, qabaqcadan hazırlanmış uydurma plan idi. Elə həmin vaxt Bakıda daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Sovet dövləti tabeçiliyində olan həmin qüvvələrdən istifadə edə bilərdi.

1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq Bakıda fövqaladə vəziyyət elan olunması haqqında fərman imzaladı. Lakin buna baxmayaraq, Bakıda dinc əhaliyə divan tutulması üçün hazırlanmış plan məxfi şəkildə həyata keçirilirdi. İlk növbədə, Azərbaycan televiziyasının enerji bloku partladıldı. Bu əməliyyatı SSRİ DTK-nın “ALFA” qrupu yanvarın 19-da həyata keçirdi. Respublika üzrə televiziya verlişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan olunmasından xəbərsiz əhaliyə amansız divan tutdu. Günahsız insanları tankların tırtılları altında xıncım-xıncım edərək, qadağan olunmuş güllələrlə qətlə yetirərək bəşər tarixində görünməyən vəhşiliyə əl atdı. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yanvarın 20-də səhər saat 7.00-da respublika radiosu ilə bildirildi. Buna qədər

yüzlərlə insan qətlə yetirilmiş, çoxlu sayda insan isə ağır vəziyyətdə xəstəxanalara yerləşdirilmişdi. Nəticədə ölənlərin sayı 137-yə çatdı. 700-dək adam ağır bədən xəsarəti aldı, 800 nəfərdən çox Azərbaycan vətəndaşı qanunsuz həbs edildi. Həlak olan dinc sakinlər arasında uşaqlar, qocalar, gənclər və qadınlar var idi. Bakının zəbt edilməsinə və sovet ordusunun dinc əhalini amansızcasına qətlə yetirilməsi əməliyyatına SSRİ müdafiə naziri Yazov rəhbərlik edirdi. Azərbaycanın o vaxtkı rəhbərliyi isə qətiyyətsizlik, qorxaqlıq və siyasi təslimçilik nümayiş etdirdi.

Azərbaycana qarşı soyqırımı həyata keçirmiş Sovet rejiminə qarşı ən kəskin bəyənatı, o vaxt Moskvada yaşayan, ermənilərin fitvası, min hiylə və məkri ilə 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırılmış, lakin hələ də təqib və təzyiqlərə məruz qalan ümummilli lider Heydər Əliyev  verdi. Ulu öndər faciə törədiləndən bir gün sonra yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi, dünyanın bütün kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı kəskin pislədi, bunu insanlığa, humanizmə sığışmayan hərəkət kimi qiymətləndirdi. O, bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərliyi yenə də kölə psixologiyasından əl çəkməmiş, bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olmuş SSRİ rəhbərliyinin mövqeyini dəstəkləmiş cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü heç bir tədbir görməmişdir. Əksinə, bu qanlı cinayəti ört-basdır etmək üçün bütün vasitələrə əl atmışdır.

20 Yanvar faciəsinə ilk dəfə ulu öndər Neydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə siyasi-hüquqi qiymət verilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi1990-cı il noyabrın 21-də bu məsələni geniş müzakirə edərək qanlı hadisəyə siyasi-hüquqi qiymət verdi. Həmin vaxt qəbul edilmiş böyük əhəmiyyət kəsb edən bu sənəddə qeyd olunurdu ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, Sov,İKP.MK katibi A.Girenko, SSRİ müdafiə naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi A.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Nazirlər Sovetinin sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko, M.Məmmədov, V.Hüseynov xalqımıza qarşı törədilən bu siyasi və hərbi qəsd üçün birbaşa məsuliyyət daşıyır və cavabdehdirlər.

Həmin vaxt Azərbaycan Xalq Cəbhəsinin bəzi fəalları da Bakıda qan töküləcəyi barədə məlumatlı olublar. Onların yaranmış bu fürsətdən istifadə edərək hakimiyyəti ələ keçirmək məqsədləri olduğundan gözlənilən faciə barəsində əhalini xəbərdar etməmişdilər. Bu barədə sonradan açıqlama yayan AXC fəallarından biri Zərdüşt Əlizadə həmfikirlərinin gözləmə mövqeyində olduqlarını demişdi. Z.Əlizadə

həmfikirlərini qınayaraq bildirmişdir ki, İsa Qəmbər, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahlı və bu məsələdən qabaqcadan xəbərdar olan digərləri xalqa məlumat verməyiblər. Onlar imperiya qoşunlarının Bakıya daxil olacaqları vaxtı dəqiqliyinə qədər bilirdilər. Ona görə də məqamında qaçıb aradan çıxmışdılar. N.Pənahlı isə qaçıb İranda gizlənmişdi. Bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verilməsi məsələsindən yan keçən Azərbaycanın o vaxtkı rəhbəri Ayaz Mütəllibov faciəni unutdurmaq üçün bütün vasitələrə əl atırdı. Ancaq ümummilli lider Heydər Əliyev faciəyə hüquqi-siyasi qiymət verilməsini hakimiyyət qarşısında bir tələb kimi qoyurdu. 1991-ci ildə Azərbaycan SSRİ Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyev dəfələrlə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı məsələ qaldırmışdır. Həmin il avqust ayının 29-da ulu öndər Ali Sovetin sessiyasındakı çıxışında demişdir: "20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün burada, bu salonda da cürbəcür söhbətlər gedir...Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova. Nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi, həm də hüquqi tərəfləri var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı".

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də qanlı Yanvar faciəsi öz həqiqi qiymətini ala bilmədi. Ümummilli lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu dəhşətli cinayət hadisəsinə obyektiv qiymət verildi. Məhz ulu öndərin təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini yetərincə qiymətləndirmək istiqamətində addımlar atıldı. Böyük tarixi şəxsiyyətin fərmanı ilə 137 nəfərə 20 Yanvar şəhidi adı verilmiş, onların ailələrinə birdəfəlik yardım göstərilmişdir.

Ümummilli lider 20 Yanvar günü imperiya qoşunları qarşısında mərdi-mərdanə dayanan Azərbaycanın mərd oğul və qızlarının bu dəyanətini çox yüksək qiymətləndirərək demişdir: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.

1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı özünün milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir".

Bakının ən yüksək, ən gözəl nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var: Şəhidlər xiyabanı. Ölkəmizə rəsmi səfərə gələn xarici qonaqlar Şəhidlər Xiyabanına aparılır, Vətən uğrunda canlarını qurban

verən mərd oğul və qızlarımızın məzarları üstünə gül dəstələri qoyulur, onların unudulmaz xatirələri yad edilir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev şəhid ailələrinə böyük diqqət və qayğı göstərir, onları yeni mənzillərlə təmin edir, digər ehtiyaclarını ödəyir. Dövlət başçımızın göstərişi ilə Şəhidlər Xiyabanında hər il abadlıq və yenidənqurma işləri aparılir. Vətənimizin müstəqilliyi, azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımızın əziz xatirələri qəlbimizdə həmişə yaşayacaq.

20 Yanvar faciəsi istiqlaliyyətə can atan xalqımızın mübarizliyini, qəhrəmanlığını, qorxmazlığını, cəsarətini nümayiş etdirdi. Xalqın qanı bahasına qazanılmış müstəqillik əbədi və daimidir.



**II Bölmə: Faciənin 20-ci ildönümü əlaqədar keçirilən tədbirlər.**

**Xalqımız 1990-cı ilin müdhiş 20 Yanvar faciəsini heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır.**

**Heydər Əliyev**
**Ümumilli lider**

20 Yanvar 1990-cı il... Həmin gün çökməkdə olan sovet imperiyası son gücünü toplayaraq azadlıq və istiqlaliyyat uğrunda mübarizəyə qalxan xalqımızı fiziki və mənəvi təcavüzə məruz qoydu. O müdhiş gecədə güclü zirehli texnika ilə silahlanmış ordu əliyalın, köməksiz insanları al qanına boyadı. Qadağan olunmuş güllələrdən istifadə edərək neçə-neçə soydaşımızı al qana qərq etdilər, nə qədər insan yaralanaraq şikəst oldu, qaçıb canını qurtarmaq istəyənlər təqibə məruz qalaraq vəhşicəsinə öldürüldü, köməyə gələn təcili yardım maşınları gülləboran edildi...

Bəli, bu qanlı olaydan nə az, nə çox düz 20 il ötür. Bu münasibətlə respublikanın hər bir yerində tədbirlər planı hazırlanmışdır. Hər il olduğu kimi bu il də şəhidlərimiz yad olunur, onların xatirəsinə dualar oxunur. 20 Yanvar faciəsi ilə bağlı respublikamızın hər bir müəssəsində olduğu kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da tədbirlər planı hazırlanmışdır. Bu tədbirlərin sayı çox genişdir. Beləki, tədbirlər planına kitab sərgisini, foto sərgisi, rəsm və inşa müsabiqələrini, xatirə gecələrini, , şeir müsabiqələrini, ədəbi-bədii kompozisiya və s. başqa tədbirləri daxil etmək olar. İlk öncə kitabxanada kitab sərgisi və bununla yanaşı şəhidlərimizin foto stentləri hazırlanmalıdır.

# 20 Yanvar şəhidlərinin fotostentləri:


















Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi”, “20 Yanvar faciəsi tariximizin qanlı, həm də şanlı səhifəsidir”, “Tarixin qan yaddaşı”, “20 Yanvar həm hüzn, həm də milli qürur günümüzdür”, “Başın sağ olsun, Vətən!”,”Qanlı faciə”, “20 Yanvar-Azadlığa gedən yolun zirvəsi” və s.

**“**20 Yanvar-Azadlığa gedən yolun zirvəsi” adlı sərginin sxemini veririk:

1. Başlıq: ““20 Yanvar-Azadlığa gedən yolun zirvəsi”.
2. Sitatlar.
3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
4. 20 Yanvar faciəsinə aid nəşr olunan kitabların siyahısı.
5. Şeir parçası.

**SİTATLAR:**

1. “Bizim xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır”.

Heydər Əliyev

Ümummilli lider

2. Bizim vəzifəmiz həmin günü sadəcə qeyd etməklə, şəhidlərin məzarını ziyarət etməklə, başqa tədbirlər keçirməklə kifayətlənmək deyil. Biz bu günlər o faciənin yaranma səbəblərini, Azərbaycan xalqına nə qədər zərbə vurduğunu bütün vasitələrlə açmalıyıq.

Heydər Əliyev
Ümummilli lider

3. XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xaıqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

Heydər Əliyev
Ümummilli lider

4. 20 Yanvarda sovet reyiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafizəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

İlham Əliyev
AzərbaycanRespublikasının Prezidenti

5. Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli, Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Seir parçası:
Qatil gülləsinə qurban gedirkən,
Sözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

_______1________

________2_________

__________3_____________

________4_______

________5_________ _________6_________

________7_________ _________8_________

_______9_________ _________10________

Qeyd: 20 yanvar faciəsinə həsr olunmuş kitabların siyahısı ədəbiyyat siyasından götürülsün.

Kitabxanada 20 Yanvar matəm günü ilə əlaqədar keçiriləcək tədbirlərin siyahısına şeir müsabiqəsini də daxil etmək olar. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Bu tədbirdə uşaqlar daha həvəslə hazırlaşırlar. Çünki bu tədbirdə uşaqlar daha fəal iştirak etmək istəyirlər. Onlar 20 Yanvar şəhidlərinin əziz xatirəsinə yazılan şeir və poemaları elə həvəslə oxuyub öyrənirlər ki, bununla da onlar şəhidlərimizin xatirəsini daha ehtiramla yad etmiş olurlar. Tədbiri hazırlayan kitabxanaçı şeir müsabiqəsini yuxarı sinif şagirdləri arasında keçirsə daha yaxşı olar. Bildiyiniz kimi, hörmətli şair və yazıçılarımız şəhidlərimizin əziz xatirəsinə yüzlərlə, minlərlə şeir və poemalar yazmışdılar. İndi isə yuxarı sinif şagirlərinin ifasında hörmətli şairimiz B.Vahabzadənin **"Utanıram"** şeirini dinləyək.

**(Oxucular səhnəyə daxil olurlar)**

**I Oxucu:**

Şəhidlərin, qaçqınların
Üstümüzdə min ahı var.
Çatdığımız hər nöqtədə
Hamımızın günahı var.

Düşmənimiz arxalandı
Silahına, öz gücünə.
Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə

Əldən getdi yurd-yuvamız,
Necə dözdük bu dərdə biz?
Qaytarmaqçın haqqımızı
Əl açmayaq namərdə biz.

**II oxucu:**

Düzü budur: Bu dünyada
Gücün varsa, sözün haqdır.
Gücün yoxsa, son əlacın
Xəcalətdir, utanmaqdır.

Bir zamanlar neçə-neçə döyüşlərdən
Qalib çıxan qalalara baxdıqca mən
Keçmişimlə indim durur yan-yanaşı.
Keçmişimdən bu günümə
Yağır indi töhmət daşı.
Alışıram için-için,
Sual qopur ürəyimdən: Neçin, neçin?

**I oxucu:**

Babaların ucaltdığı
Bizim qalıb qalalardan utanıram.
Çadırlarda
Donan körpə balalardan utanıram.
Bu torpağı qorumağı
Özümüzə borc bilmədik.
Vətən getdi,

Vətədaşlıq zirvəsinə yüksəlmədik,
utanıram.

Vətən getdi, şeir yazdıq
“Sən mənimsən, ana Vətən”.
Vətən getdi, nitq dedik
Uca-uca kürsülərdən,
utanıram.

Vətən getdi, el talandı,
Didişirik biz hələ də.
Biz iqtidar uğrundakı döyüşlərdən
Uzanmadıq bir gilə də,
utanıram.

**II oxucu:**

Söz altında yatammırdıq,
Diz altında yatan olduq.
Dədələrin qazancını
Nəfsimizə satan olduq.
Yurdu satmaq hesabına
Arzumuza çatan olduq,
utanıram.

Səbrimizin dolub daşan kasasından,
Şəhidlərin alınmamış qisasından,
Onların qan bahasından,
Bu millətin qəhrəmanlıq dühasından
utanıram.
Biz hələ də çalxanırıq
Ələ keçdi durulmadıq.
Kütləyik, bu çək-çevirdə
Ələnib millət olmadıq,

Qəbirlərin baş daşını oğurlayan,
Yaşamaqçın ölü soyan
Gədələrin özümüzdən olduğuna
utanıram.

**Başı çox bəlalar görmüş Azərbaycan zaman-zaman düçar olduğu qasırğalardan, tufanlardan, haqsızlıqlardan məhz fədakar övladlarının şücaəti sayəsində qalib çıxıb. Sinəsinə min bir dağ çəkilsə də, ciyərparaları şil-küt edilsə**

**də, səmasının dincliyi pozulsa da, üzləşdiyi bütün yaramazlıqların əhatəsindən sıyrılaraq, öz ləyaqətini, qürurunu saxlaya bilib, başını həmişə dik tutub.**

Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 1990-cı ilin qanlı yanvarından 20 il ötür. 20 Yanvar tarixi bir gündür. Bu tarixi günü xalqımız hər il qeyd edir. Beləliklə, də kitabxanada 20 yanvar faciəsi ilə bağlı **görüş** də keçirmək olar. Görüşə kitabxanaçı 20 Yanvar şahidlərini, bu faciədə həlak olan şəhidlərin valideyinlərini və bir sıra görkəmli insanları dəvət edə bilər. Tədbirdə kitabxanaçı 20 Yanvar faciəsinin qurbanı olmuş Oqtayın valideyinlərini dəvət edir. Kitabxanaçı tədbirdə iştirak edən qonaqlara Oqtayın faciəli həyatından danışır.

Oqtayın əsli qədim Oğuz yurdu Göyçə mahalının Ardanış kəndindən idi. Urvası halallıqla yoğrulmuş bu ailədə hər şey zəhmətlə, alın təri ilə başa gəlmişdi. Ailənin başçısı Eyvaz əmi ömrü boyu təsərrüfatda çalışmışdı, ixtisasca aqronom idi. Ömür-gün yoldaşı Minarə xanım isə fəal və qabaqcıl işçi kimi dəfələrlə yerli sovetlərə deputat seçilmişdi. Bu ailədə böyüyüb boya-başa çatmış Oqtay, inşaat sahəsini seçmişdi. Dəniz donanmasında üç il hərbi xidmət keçmiş Oqtay ipək kimi yumşaq xasiyyətli, zarafatcıl bir gənc idi. Həyatı boyu kimsəyə pislik, yamanlıq eləməyən, ehtiyacı olanlara imkan daxilində əl tutan, hamıya yaxşılıq diləyən xeyirxah bir ailədə böyüyən Oqtay bir gün Bakıya gəlir. 28 nömrəli tikinti İdarəsində usta işləyən Oqtay bənnalıqdan briqadir vəzifəsinə qədər irəli çəkilir. 1990-cı ilin yanvar ayında Bakı üzərində dolaşan qara buludlar daha da sıxlaşdı. Şəhərdə bir-birinin ardınca baş verən xoşagəlməz hadisələr, dolaşan həyəcanlı xəbərlər əhali arasında, sözün həqiqi mənasında xof yaradır. Insanların narahatlığını günbəgün artırırdı. Odur ki, xalqın vətənpərvər oğulları, Vətənin azadlığı yolunda canından belə keçməyə hazır olan insanlar şəhərin müxtəlif yerlərində, paytaxtın giriş qapılarında gecə-gündüz keşik çəkirdilər. Belə qeyrətli oğullardan biri də Oqtay Eyvaz oğlu Kərimov idi. Həmin çətin günlərdə o, nəinki iş yerinə, heç evə, doğmalarına belə baş çəkmirdi. Camaatın içərisində, ən qaynar nöqtələrdə olurdu. Daha o, əvvəlki Oqtay deyildi. Tez-tez mitinqlərdə, camaat arasında çıxışlar edir, çoxlarının deyə bilmədiyi həqiqətləri gur səslə bəyan edirdi: ”Düşmənini tanıyırsansa, o, bir qədər də qorxulu deyil. Vay o gündən ki, özünə dost bildiyin sənə düşmən kəsilə, düşməninlə birləşib ayağının altını qaza. Ermənilərin Azərbaycan xalqının düşməni olduğunu hamı bilir”.

Bəli Oqtayın dəmir məntiqə söykənən bu cür alovlu çıxışlarını dinləyənlər inana bilmirdilər ki, bu, sıravi bir fəhlənin fikirləridir. Oqtayın belə fəallığı onu, ailəsini yaxından tanıyanların da nəzərindən yayınmırdı.

İndi isə kitabxanaçı sözü Oqtayın anası Minarə xanıma verir. Minarə xanım oğlunun faciəli ölümündən danışır.

Bir gün Oqtay bizə dedi: Sizin dediklərinizə əməl etmək mənim övladlıq borcumdur. Amma mən həm də bu torpağın, bu Vətənin övladıyam. Vətən bu gün dardadır. Belə bir vəziyyətdə mən necə evdə otura bilərəm!

Baş verən hadisədən bir neçə gün əvvəl bizə baş çəkməyə gəlmişdi. Evdə mən tək idim. Oqtay ayaqüstü nahar edib, paltarını dəyişdi. Şər qarışan vaxt evdən çıxmaq

istəyəndə qapının ağzında Oqtayla görüşdük. Oğlumun qarşısını kəsib təkcə bunu deyə bildim:

Qurbanın olum, Oqtay, getmə. Qorxuram. O, isə mənim üzümdən öpüb, arxayın ol, ana. Heç nə olmayacaq, tez-tez gəlib sənə baş çəkəcəyəm, deyib qapıdan çıxdı.

Yanvarın 19-dan 20-nə keçən gecə Tofiq Bəhramov adına respublika stadionu tərəfdən irəliləyən Sovet Ordusunun başkəsənləri qarşılarına çıxan hər şeyi məhv edirdilər. Elə bu vaxt qol-qola yapışmış əliyalın üç gənc onların qabağına çıxdı ki, bəlkə dayanalar. Gözlərini qan örtmüş vəhşilər onları gülləborana tutdular. Hər üç gənc şəhid oldu. Bu gəclərdən biri də mənim balam Oqtay idi.Onlardan biri Oqtayın dostu Müşfiq, o biri gənc şəhidi isə tanıyan olmadı.

Beləliklə, Oqtay indi 20 ildir ki, Şəhidlər Xiyabanında uyuyur. 20 ildir ki, biz hamımız ailəlikcə Oqtayın məzarını ziyarət edir, onun ruhuna dualar oxuyuruq. Hər dəfə mən Oqtayın məzarını ziyarət edəndə onunla dərdləşirəm. Soruşuram ki, nəyə ehtiyacın var ay oğul. O, da cavab verib deyir: Heç nəyə ehtiyacım yoxdur ay ana!
Təkcə sənin oxuduğun “lay-lay” üçün darıxmışam.Onu züm-zümə eləsən mənim üçün xoş olar. İndi mənim şəhid oğlumun məzarı başında oxuduğum “lay-lay” yavaş-yavaş avazlanaraq burada uyuyan şəhidlərin ruhuna deyilən bir ağıya çevrilir.

***Arazam, keç üstümdən,***
***Keç, karvan, keç üstümdən.***
***Bu dərdi mən əkmişəm,***
***Dəryaz al, biç üstümdən.***

***Süqutu ötən əsrin 80-cı illərində sürətlənən sovet imperiyası 70 il SSRİ tərkibində yaşamış xalqların ötən əsrin sonlarında güclənmiş milli azadlıq hərəkatının qarşısını nəyin bahasına olursa-olsun almağa, labüd iflasdan yaxa qurtarmağa çalışırdı. İttifaq ölkələri arasında istiqlaliyyəti uğrunda ən güclü mübarizə aparan Azərbaycan xalqı milli azadlıq hərəkatındakı əzmkarlığına, qəhrəmanlığına görə “İlin xalqı” elan edilmişdi. Lakin imperiya xalqlara onların tələb etdiyi azadlığı asan yolla vermək niyyətində deyildi, ittifaq rəhbərliyi əsarətdən yaxa qurtarmağa çalışan ölkələri cəzalandırmağa hazırlaşırdı . Belə bir vaxtda yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərində baş verən faciəli hadisələr milli azadlıq uğrunda mübarizənin ən yüksək mərhələsi idi. Xalq nəyin bahasına olursa-olsun, azadlığına qovuşmaq, suverenlik əldə etmək istəyirdi. Meydanlara toplaşan yüz minlərlə insan yalnız bu əzmlə mücadilə aparırdı.***

20 Yanvar faciəsinə həsr olunmuş silsilə tədbirlər mədəni-maarif ocaqlarında davam edilir. Belə ənənəvi tədbirlər respublikamızın bir sıra yerlərində kitabxanalarda, məktəblərdə, muzeylərdə, gimnaziyalarda, hətta görkəmli tetatrlarımızda da keçirilir. Belə tədbirləri keçirmək bizim hər birimizin vətəndaşlıq

borcumuzdur. Bu tədbirlər siyahısına xatirə gecəsini də əlavə etmək məqsədəuyğun olardı. Beləki, xatirə gecəsinə kitabxanaçı bir sıra qonaqları dəvət edə bilər. Tədbirə şair və yazıçılarımızla yanaşı, ədəbiyyat müəllimləri və bu faciədə şəhid olmuş Ülvü Bünyadzadənin valideynləri də iştirak edə bilər.

**"Ülvi hisslərdən şəhidlik zirvəsinə" adlı anım gününü qeyd edirik. (kompazisiya)**

Tədbir "Şəhidlər" mahnısının sədaları ilə başlayır.

Aparıcılar səhnəyə daxil olur və qonaqları salamlayır.

I aparıcı: Bildiyiniz , kimi Azərbaycan xalqının tarixində iki milli intibah dövrünü xüsusilə qeyd etmək lazımdır. Bunlardan birincisi XIX əsrin axırları-XX əsrin əvvəlləri idisə, digəri 1988-ci ildən başlanan və ancaq oyanış mərhələsini keçə bilən o izdihamlı illər idi. İkinci hadisə, təəssüf ki, hələ də öz elmi-fəlsəfi təhlilini tapmamışdır. Bu elə bir dövr idi ki, bir tərəfdən, qarşıda imperiya buxovlarından azad olmaq şansı, müstəqillik perspektivi görünürdü, digər tərəfdən milli varlığın rəmzlərindən biri olan Vətən torpağına qəsd edilmişdi. Həmin dövr hamımız üçün ağrılı, həyəcanlı və eyni zamanda ümüdli bir dövr kimi yadda qalmışdır. Hamı hər gün, hər saat həm nə isə qorxulu, həm də nə isə sevincli bir şey gözləyirdi. Kimin ki, yeniyetməlik çağı bu dövrə düşmüşdü, onlar gözlərini açıb bu təzadlar içərisində yol seçmək məcburiyyətində idilər. Kim ki, Ülvi kimi hələ gənclik dövründə ikən yetkinlik məqamına çatmışdı, o, hisslərini şeirlərində, düşüncələrini məqalələrində, iradi əzmini əməllərində ifadə edirdi.

II aprıcı:

***Ən dərin dərələr, müdhiş yarğanlar,***
***Əlçatmaz dağların özülü olur.***
***Gülüşlər, haraylar, ahlar, amanlar,***
***Həmişə yan-yana düzülü olur.***

Bəli, bu dövr faciələr dövrü idi. Bu dövr həm də qəhrəmanlıq, cəngavərlik dövrü idi. Yeniyetmə gənclərin elə küçələrdəcə avtobuslara minib birbaşa cəbhəyə, döyüşə tələsdiyi, qanların qaynadığı, hisslərin coşduğu, bəzən on illərlə dərk edilə bilməyən milli mənliyin bir anda dərk edildiyi hümmət zamanı idi, qeyrət zamanı idi!

Amma kimlərsə hələ qabaqcadan özünü bu qeyrət məqamına hazırlamışdı. Damla-damla dolmuş, misra-misra yazılmış bir tale!

***Axtarın elimin nər balasını,***
***Versin haqsızların haqq bəlasını!***

Bəli, Ülvinin qələmə aldığı bu misralar hələ 1987-ci ildə yazılmışdı. Sanki şair qəlbinin uzaqgörən duyumu, intuisiyası məqamın yaxınlaşmasından xəbər verirdi və 17 yaşlı gənc artıq özünü öncədən bu məqama hazırlayırdı.

***Mən qorxmuram uzaq yola***
***çıxmaqdan,***
***Bu yolun ağrısından, acısından,***
***"Ölüm" adlı yuxusundan mən***
***qorxmuram!***

I aparıcı: Bəli, Ülvi Bünyadzadə sadəcə özünə, şeirinə çəkilmədi, "ölümünə çəkildi" və torpağına qatışaraq onu yağılara vermədiyinə əminliklə getdi. Bu gedişi ilə nəsillərə örnək oldu. Amma həm də böyük bir könül dəftərini, öz poetik pafosunu, lirik hüznünü də qalıb yaşayanlara ərmağan etdi. Və bu mükəmməl poeziya abidəsi ilə bizimlə qaldı. Və öz milli "mən"ini yaradıcılığında ifadə etməklə millətlə qalmağın, həmişəlik qalmağın da örnəyi oldu.

***Bİr qəm yüklü ürəyəm ki,***
***Aparammaz karvan məni***
***Mən Ülviyəm, kim atsa da,***
***Atmayacaq inam məni!***

II aparıcı: İyirmi yanvar gecəsinin qaynar qan içində çırpınan, azadlıq eşqinin, Vətən sevgisinin şəhid olan vədələriydi. Uşaqları, cavanları, qocaları kafir hikkəsi, xəyanət güllələri sünbül kimi biçib torpağa sərirdi. Allahın gözlərinə mil çəkilən, lailahəilləllahın qolları qılınclanan, peyğəmbərlərin ruhu diksinən, canı üşüyən qara-qanlı bir gecəydi. Dörd bir tərəfdən yolları bağlanan, haqqını tələb etdiyi üçün haqsızlığın cinayətkar, iblis əməllərilə gülləboran edilən, müqəddəs azadlıq yolunda şəhid olan şəhər minarə əllərini göylərə qaldırıb imdad diləyirdi.

***Hər kəsin var bir kəsi,***
***Mən bikəsin yox bir kəsi.***
***Darda qaldım gəl yetiş,***
***Ey kimsəsizlər kimsəsi....***

Kitabxanada həmçinin, ədəbi-bədii kompozisiyanın keçirilməsi də vacibdir. **"Ağla, qərənfil, ağla"** adlı ədəbi-bədii kompozisiyanın ssenarisini veririk.

**Səhnə təzə-tər qərənfillərlə bəzədilir. Səhnənin orta divarından Azərbaycanın bayrağı ilə yanaşı qara bayraq da asılır. 20 Yanvar faciəsi ilə bağlı sitatlar səhnənin divarında öz əksini tapır.**

**Sitat:**

**Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.**

**Heydər Əliyev**
**Ümumilli lider**

Tədbir musiqisi Rəşid Şəfəqin, sözləri Məmməd Aslanın **"Ağla, qərənfil, ağla"** mahnısının sədaları ilə başlayır.

(Oxucular "Ağla, qərənfil, ağla! şeirini səsləndirirlər)

**Qərənfil şəhid qanı,**
**Ağla, qərənfil, ağla!**
**Ağla, inlət meydanı,**
**Ağla, qərənfil, ağla!**

**Bəxti açılan qıza,**
**Hünəri aslan qıza,**
**Toyu, yas olan qıza**
**Ağla, qərənfil, ağla!**

**Ağla, ürək boşalsın,**
**Ağla, dağlar yumşalsın,**
**Ağla, qərənfil, ağla!**

**Bu təklənmiş şirlərə,**
**Bu arxasız ərlərə,**
**Bu talesiz nərlərə**
**Ağla, qərənfil, ağla!**

**Bu günahsız qanlara,**
**Bu müqəddəs canlara,**
**Bu nakam cavanlara**
**Ağla, qərənfil, ağla!**

**Bu qara yazılara,**
**Bu körpə quzulara,**
**Quruyan arzulara**
**Ağla, qərənfil, ağla!**

**Aparıcılar səhnəyə daxil olurlar.**

I aparıcı: Heç bir xəyanət və fəlakət unudulmur. 1990-cı il yanvarın 20-də xalqımıza qarşı tötədilmiş qanlı qırğın həm xəyanət idi, həm də fəlakət. Dövlətin öz vətəndaşına xəyanəti, xalqımızın başına gətirilən növbəti fəlakət. Hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələnlər, bir tərəfdən xəyanət və

| | |
|---|---|
| | fəlakətin səbəbkarlarını lənətləyir, digər tərəfdən qürur hisslərini gizlətmirlər. Axı şəhidlər təpədən dırnağacan silahlanmış qoşunun qabağından qaçmadı, bizə Vətəni necə sevməyi, azadlıq, müstəqillik uğrunda qurban getməyi öyrətdilər. Onlar ölümləri ilə ölümsüzlük qazandılar. |
| II aparıcı: | Hər il Şəhidlər xiyabanını ziyarət etməyə ölkəmizin müxtəlif bölgələrindən minlərlə insan gəlir. Siyasi əqidəsindən, dinindən və dilindən, təhsilindən və tutduğu vəzifəsindən asılı olmayaraq, bu adamlar qanlı cinayətin səbəbkarlarını lənətləyir, şəhidlərin ruhu qarşısında baş əyirlər.<br>**(Oxucular Rafiq Yusifoğlunun "Şəhidlər xiyabanı" adlı şeirini söyləyirlər.**) |
| I oxucu: | Şəhidlər xiyabanı<br>Müqəddəs and yerimiz.<br>Mərmər daşlara hopub,<br>Bayatımız, şeirimiz.<br><br>Bizə güllə dəyəndə,<br>Bu torpaq yaralanıb.<br>Onun sinəsi üstə<br>Məzarlar sıralanıb.<br><br>Mərdləri qorxutmayıb,<br>Namərdlərin gülləsi.<br>Hər qəbir azadlığa<br>Gedən yolun pilləsi.<br><br>Əlimizdə qərənfil<br>Dilimizdə haqq sözü.<br>Bu günahsız millətə<br>Kömək olsun haqq özü!<br><br>Hər baş daşı çevrilib,<br>Şərəf, qeyrət büstünə.<br>Bir güllə qoyulubdur<br>Hər məzarın üstünə. |
| II oxucu: | Igid oğullarımız<br>Cərgə ilə keçirlər, |

Məzarların önündə
Diz çöküb, and içirlər.

Gülləri götürüb
Döyüşlərə gedirlər.
Günahsız qurbanların
Ruhunu şad edirlər.

Şəhid məzarlarından
Gedən odlu güllələr,
Düşmənlərin başına
Alov saçar, kül ələr.

Geri dönər Xocalı,
Geri qayıdar Şuşa.
Şəhid ruhu şad olar,
Dönər bir qızıl quşa.

Qarabağ torpağının
Üstündə uçar, uçar.
Hamımızın qəlbində
Arzular çiçək açar.

**Aparıcılar səhnəyə daxil olur. Gəlin indi də "Tanrı müjdəsi" adlı mənsur poemaya qulaq asaq.**
**(Aparıcılar səhnəyə daxil olur)**

I aparıcı: O gecə buludlar dənizə tərəf gedirdi. Nəydi qəsdi buludların?O gecə külək dənizdən gəlirdi. Nəydi sehri küləklərin? Bulud dənizdən göz yaşı borc aldı. Dünyada hər şey onsuz da borcdu.
Küləklər dənizdən qovdu buludu. Qovdu...Qovdu, isti gülləyə gələnlərin üstünə tuşladı. Bulud ağladı. Yaman ağladı.

*Ağlaram, ağlar kimi,*
*Dərdim var dağlar kimi*
*Xəzəl olub töküldüm*
*Viranə bağlar kimi*

II aparıcı: O gecə Bakı küçələri kəfən geyinib sinələrini açmışdı. Sinə qalan yerdə kürək göstərməzlər düşmən gülləsinə. Ağzından

od püskürən əjdahalar o gecə yol azmışdılar. Oraq götürüb bənövşə ətirli ucaboy çinarlarımızı biçəcəkdilər. Qaranlıq gecədə Bakını qan iyi bürüyəcəkdi. Anamız Azərbaycan qara geyib göy bağlayacaqdı.
O gecə heç kəs yatmamışdı. Güllə səsindən tir-tir titrəyən balalarımızın baxışları...Qaranlıq pəncərələrimizin arxasında göz yaşı axıdan ana-bacılarımız...Göy də... Yer də...sabahın belə açılacağından sanki xəbərdar idilər. Təəccüblü, vahiməli gözlərdən süzülən büllur damcılarda bir göynərti, bir nifrət yatırdı. Axı, günahsız balalarımız, yeddidöşəkli bala kimi, quru yer üstə can vermişdilər...
Allah onlara rəhmət eləsin! Məzarları nurla dolsun!

***Mən aşiq əsdi neynim?***
***Səbrimi kəsdi neydim?***
***İl dostu ürək düşməni,***
***Mən belə dostu neynim?***

Və üzü dost, içi düşmən olan nadanların xislətindən Anamız qara geyib göy bağladı. Və müqəddəs ziyarət yerimiz Şəhidlər Xiyabanına gəldi.
Aramla gəlib birinci  məzarın qarşısında dayandı. Bu vaxt torpaq dilləndi:
Bala dağı yaman olur. Ağlama, buludum, ağlama. Bu qar sinəm üstə əbədidi. Sızlama, buludum, sızlama!

***Gəl, gedək daş bulağa,***
***Suyu sərxoş bulağa.***
***Ana-bala həmdəm olub***
***Tökək qan-yaş bulağa***

-Fərizə balam! Ilham balam!... Toy çırağınız əllərinizin hərarəti üçün yaman qəribsəyir. Hesabla gərək indiyə nəvəm olaydı. Həvəngdə açı-ucu döyəydim balam üçün. Mən isə ürəyimi həvəng dəstəyinə çevirib dərd döyürəm indi.
Ana o biri üç məzarın önünə keçdi.
-Bax, bu üç balam Vəfadar, Ülvü, Azər tələbə idilər. Vəfadar haqqın keşişçisi, Azər asudə vaxtı bəzəyən, Ülvi isə mənəvi dayağı olacaqdı yurdumun deyə Ana Ülvünin məzarı önündə diz üstə çökdü. İlk kitab ilk övlad kimidir. Nübarının sevincini də dadmadın, gözümün işığı. Yazdığın xatirədən bildim ki, kitabının çıxacağına arxayınsanmış. Mübarəkin olsun! Indi qapına nəfəsin üçün dilənməyə gəlmişəm,

əliboş qaytarma qəlbidağlı ananı!-Ana Ülvinin məzarını iyləyib, o biri məzara yan aldı.

**ANA:-** İlqarım, Larısam, Vera qızım... Mənim kəpənək körpələrim...Kim qanadınıza toxundu belə? Ay İlqar bala! Axı övladda nəvə deyiblər. Mən sənin kiçik toyunda əl qaldırıb süzəndə qolum sınaydı kaş! Nə biləydim toy mağarına girməyəcəksən? Nə biləydim bəy otağının qapısına qara qıfıl vurulacaq?

Ana gətirdiyi xonçadan bir pay götürüb İlqarın məzarı üstünə qoydu. Aramla gəlib ağsaqqal Bəfadar kişinin məzarı önündə dayandı.

**ANA:-** Ay Bəfədar kişi, saçının hər burumunda bir dərd naxış salıbdı. Yığ başına balalarımızı, torpaq ətri ilə ovundur onları. Birinin dözümü tükənəndə sən ona Allahın birinci adını izah elə. Şəhid balalarımızın məzarı qəzəblə dolanda sən təsəlli dilini işə sal, qardaş. Ağsaqqallığın mübarək!

**APARICI:-** Ana bir məzar boyunca da addadı.

**ANA:-** Bu əsgər geyimli balam kimdir? Xəlqan? Ay bala, səni bu məclicə kim dəvət etdi? Dili qurusun namərdin! Dur, get evinə bala! Mənim kimi qara kəlayağılı anan yolunu gözləyir.

***Əzizim, kaman ağlasın,***
***Quşlar qanad saxlasın.***
***Ürəyinə dağ çəkilən***
***Ana-bacılar ağlasın.***

***Gedirdim qırağınan,***
***Gül biçdim orağınan.***
***İtirmişəm balamı,***
***Axtarıram sorağınan.***

**Ana nalə çəkib fəryad edir:**

Ay tanrım! Bu cavanların hərəsi bir evin dirəyi deyildimi? Ay Yadigar balam!...Sən, ay Rüstəm balam!...Ay azadlığı əlindən alınmış Azad balam! Toyunuz olacaqdı axı? Mən də qol çırmayıb qazan asacaqdım axı?

***Tərlanın bağdadı gəl,***
***Şamaman tağdadı gəl.***
***Üzüyün sandığımda,***
***Qurbanın bağdadı gəl.***

**Ruhlar bir boy qalxdılar. Ana nigarançılıqla boylandı.**

**ANA:-** Necə? Toy olmayacaq? Olacaq!... Mən şəhid toyu edəcəyəm! Hələ bir gəlin də gətirəcəyəm!-deyə Ana xonçanın örtüyünü kənara tulladı. Gəlin gələndə başına şirinlik səpərlər, düyü səpərlər. xonçadan bir ovuc şirni və düyü götürüb məzarlar üstünə səpdi. Sonra hər məzara ayrılıqda yanaşmağa başladı. Ağzınızı şirni eləyin, ay camaat!.Sonra xonçadan bir dəst paltarlıq götürüb yerə sərdi. Gəl, ay gəlinbacı, keç bunun üstündən. Fəqir-füqəra bəxşişi! Mən hələ gərək bir oğul toyunda da qol çırmayıb oynayam gərək! Əl, çalın, ay camaat! Subay balalarımın toyunda oynamaq istəyirəm! Əl çalın, ay camaat!

Ana yorulub xonçanın kənarında oturdu. Səmənini götürüb ləçəklərini tumarladı. Bir an gözlərini qapadı. Sonra səməninin başını kəsdi və ləçəklərini saymağa başladı.

-Yox, niyə cüt gəlmədin, ay səməni? Deməli, balam üçün hazırladığım gəlinlik gədəyinin qapısı bağlı qalacaq? Deməli, nəvə səsi eşitməyəcəyəm?

***Başımda fitə yandı,***
***Od tuta-tuta yandı.***
***Mənim ahu-zarımdan***
***Göydə mələk oyandı.***

***Haray mənim ellərim,***
***Başdan qara tellərim.***
***Əvvəl üzümü verin,***
***Sonra gəlsin ellərim.***

**Ana şəxsey gedə-gedə Alının məzarının başına gəldi.**

-Alı balam!... Qələminin nuruna qurban! Dur, ayağa, yaz bəxtiqara ananın taleyini...

-Ay, Fəxrəddin, hu!...Gəl bura, gözümün işığı, aparatını götür. Arif! Ay Arif! Ananın üzünə işıq sal. İşıq sal ki, şəklim yaxşı düşsün.

Niyə məni saya almırsan, Alı balam? Axı sən qızdan, gəlindən həyalı olmusan? Məzarının torpağına qurban anan! Mehmanı olduğun evlər həyalı üzünə həsrət qalıbdı, bala. Sənə yaraşmır axı, burada uzanmaq? Dur, ayağa, yarımçıq qalmış dəftərini, təmasına həsrət qələmini götür. Götür ki, bəxtiqara ananın boyata dönmüş qismətindən yaza biləsən. Dinmirsən. Niyə?

***Ağlasan, başdan ağla,***
***Kiprikdən qaşdan ağla.***

*Belə balası ölən,*
*Durar obaşdan ağlar*

*Yağış yağdı dağlara,*
*Şeh qondu budaqlara.*
*Heyf sənin canından*
*Qarışdı torpaqlara*

**Ana bu zaman yenə beli bükülmüş halda Salatının məzarı üstünə gəlir.**

-Qadınlar dözümlü olurlar. Qələm qardaşlarına təsəlli ol, ay qızım.

*Bağça barın deyiləm,*
*Heyva-narın deyiləm.*
*Gəl körpənə zamin dur,*
*Sənə zamin deyiləm.*
*Gəlin Salatınım, a laylay,*
*Nakam Salatınım, a laylay.*

**Ana diz üstə çöküb əllərini göyə qaldırdı.**

-İlahi! Ay Tanrım! Niyə məni məkr və hiylənin qurbanı elədin? Bu ağ saçımın naləsini yerdə qoyma, ey böyük yaradan!-deyə bütün məzarlara əl uzatdı:

- Ey vətənimin Şəhid çiçəkləri! Daha heç bir şaxta, soyuq dondurmayacaq, üşütməyəcək sizi! Siz mənim qəzəb və nifrətimdən becəribsiniz! Daha Sizə ölüm yoxdur, balalarım!

Ana xonçadan gülabqabını götürüb əlinə tökdü, əl-üzünə, boyun-boğazına sürtdü.

-Siz də gülabdan alın, birini ağ, o birini qara hörüb oturanlar! Bizim Odlar yurduna ağlamaq yaraşmır!

Bu vaxt ənginlikdən bir səs gəldi:

*Sil göz yaşlarını, yaxşı sil, ana!*
*Qoy düşmən görməsin ağlamısan sən.*
*Başını dik saxla, uca dağ kimi,*
*Məni sinəsində yaşadar vətən.*

-Başını uca tut Ana! Ucalıqda dur!

Bir dəstə durna Ananı qanadları üstünə alıb, əbədi məşəlin yanında endirdilər. Ana əllərini geniş açıb dedi:

-Mən Azərbaycan anasıyam! Silin göz yaşlarını, balalarımın! Bu müsibətə son qoymaq üçün...

**II APARICI:** Bəli, 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti var. Hər şeydən əvvəl həmin gün Azərbaycan tarixinə “Azadlığa aparan yol” kimi düşdü. Digər tərəfdən, mənfur qonşumuza- təcavüzkar Ermənistana aydın oldu ki, Azərbaycan xalqı ərazisinin bir qarışını belə digər xalqlara güzəştə getməyəcək. Bu yolda canlarını qurban verəcək, sinələrini sipər edəcək, lakin geriyə dönməyəcək. 20 yanvar şəhidləri kimi...

Beləliklə, illər bir-birini əvəz, edəcək, nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Xalqın milli qürur günü heç vaxt unudulmayacaqdır. 20 Yanvar bizim milli qürur günümüzdür.
Tədbirin sonu Azərbaycanın dövlət himni ilə başa çatır. Tədbirə gələn qonaqlar öz vətəndaşlıq borclarını yerinə yetirib, Şəhidlər xiyabanını da ziyarət etməyi unutmadılar.
**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**
**Qəbirləri nurla dolsun!**

**Adımız dolaşdı bütün dünyanı,**
**Çox da ki, ağımız qara yozuldu.**
**Bizim şəhidlərin tökülən qanı**
**Haqqın kitabında imzamız oldu.**

**S O N**

## ƏDƏBİYYAT SİYAHISI


**KİTABLARDA**

Allahverdiyev İ. (Qəmgin). Şəhidlər xiyabanı : poema // Allahverdiyev İ. Laçın daşında, qəzəllər və... – B.: Təfəkkür, 2005. – 164-173.

Aslan M.Ağla, qərənfil, ağla // Aslan M. Seçilmiş əsərləri. – B.: Avrasiya Press, 2006. – S.88-93.

Aslan M. Məzarsız şəhidə ağı// Aslan M. Seçilmiş əsərləri. – B. : Avrasiya Press, 2006. – S.96-97.

Babanlı V. Haydı, igidlərim, haydı! ; Sağ salamat qayıdın! ; Qırmızı qəbirlər ; Elegiya: şeirlər / V. Babanl; // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.36-44.

Buzovnalı R. Şəhidlər : şeir // Buzovnalı R.Dərdlərimlə baş-başa – B. : Şəms, 2007. – S.6.

Buzovnalı R. Azərbaycan : şeir // Buzovnalı R.Dərdlərimlə baş-başa – B. : Şəms, 2007. – S.5.

Buzovnalı R. 20 Yanvar : şeir // Buzovnalı R.Dərdlərimlə baş-başa – B. : Şəms, 2007. – S.96.

Buzovnalı R. Şəhidlər : şeir // Buzovnalı R.Dərdlərimlə baş-başa – B. : Şəms, 2007. – S.101.

Buzovnalı R. Şəhidlər : şeir // Buzovnalı R.Dərdlərimlə baş-başa – B. : Şəms, 2007. – S.120.

Dəmirçi Z. 20 Yanvar : poema // Dəmirçi Z. Qayalı : şeirlər və poemalar. – B.: UniPrint, 2008. – S.302-314.

Dəmirçi Z. İgidlərim qoldu, qıçdı :20 Yanvar şəhidlərinə : şeir // Dəmirçi Z. Qayalı : şeirlər və poemalar. – B.: UniPrint, 2008. – S.66.

Dəmirli D. Bil, 20 yanvardır : şeir // Vətən imtahan verir : şeirlər, mənzum felyetonlar və məqalələr. – B.: Araz, 2004. – S.15-16.

Dərvişzadə S. Şəhidlər üçün ağlama : şeir // Dərvişzadə S. Məhəbbət allah payıdır. – B : Qartal, 2000. – S.37.

Eyyubova B. 20 Yanvar : şeir // Ədəbi İrəvan. – B.: Nərgiz, 2003. – S.150.

Ələkbərli M. Ağlama şəhidlərə ; Tanrım, bu yazını yazmaq nə çətin... ; Bacım ; Oxu, Zeynəbim, oxu... ; Ayır : şeirlər / M. Ələkbərli // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.206-211.

Əyyub N. Qanlı Yanvar : şeir // Əyyub N. Kəpəz: Şerlər və poemalar– B.: Adiloğlu, 2004. – S.38-41.

Əyyub N. Ağladım : şeir // Əyyub N. Kəpəz: Şerlər və poemalar – B.: Adiloğlu, 2004. – S.15-16.

Gülgün M. Şəhid balaları : şeir // Ədəbiyyat qəzeti. - 2009. - 23 yanvar. - S.1.

Hacıyeva O. Şəhidliyə qovuşaq : şeir // Hacıyeva O. Bağışla, Vətən, bağışla – B. : Adiloğlu, 2004. – S.9-10.

Hacıyeva O. Bəlkə onda : 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunur :şeir // Hacıyeva O. Bağışla, Vətən, bağışla – B. : Adiloğlu, 2004. – S. 28-30.

Hacıyeva O. Qırmızı qərənfil : şeir // Hacıyeva O. Bağışla, Vətən, bağışla – B. : Adiloğlu, 2004. – S.37.

Hacıyeva O. O qanlı gecə: şeir // Hacıyeva O. Bağışla, Vətən, bağışla – B. : Adiloğlu, 2004. – S.90-92.

Hacıyeva O. Azadlıq meydanı : şeir // Hacıyeva O. Bağışla, Vətən, bağışla – B. : Adiloğlu, 2004. – S.99.

Hacıyeva Fəridə. Azadlıq meydanı ; Qırmızı qərənfil ; Vətən: şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.245-247.

Hidayət. Doxsanıncı il ; Bir qoşun Əzrayıl ; Qələmini qanına batıran şair : şeirlər / Hidayət // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S146-162.

Hüseyn Yusif. Şəhidlər : 1990-cı il yanvarın 20-də Azərbaycanın azadlığı uğrunda şəhid olanların əziz xatirəsinə / Y. Hüseyn // Bir parça ömür yolu. - B. : Araz, 2004. - S.221-222.

Kamal A. Şəhidlər xiyabanı : şeir // Ədəbi İrəvan. – B.: 2003, Nərgiz. – S.194.

Kəsəmənli N. 20 Yanvar ; Qar yağır Şəhidlər xiyabanına.: şeirlər // Azərbaycan harayı. - B.:: Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.108-116.

Qabil.Çalsın Azərbaycan haray zəngini ; Mərsiyə ; Oldu : şeirər / Qabil // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.23-32.

Qudyalçaylı M. Qara səhifələr ; Ağ atım - qırmızı atım : şeirlər / M. Qudyalçalı // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.257-258.

Tahir S. Şəhid : şeir // Tahir S. Seçilmiş əsərləri – B.: Şərq-Qərb, 2005. – S.159-160.

Tənha T.Qara Yanvar : poema // Soyqırım : poemalar. – B. : Avropa, 2003. – S.233-268.

Rüstəmxanlı S. Ölümün görüşünə gedən qız : şeir 20 Yanvara həsr olunur / S. Rüstəmxanlı // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S.194-196.

Şirinov T. Bakıda İyirmi Yanvar qırğını : üç pərdəli, on şəkildə faciə // Şirinov T. Qarabağda qan izləri: dram əsərləri. – B. : Nərgiz, 2007. - 252 s.

Ulutürk X. R. Qanım bayrağımdadır : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.353-363.

Ülvi Ə. Şəhid Rəhim dastanı : 1990-cı il 20 Yanvar qırğınında şəhid olmuş Babayev Rəhim Vaqif oğlunun əziz xatirəsinə həsr olunur // Heydər baba nəğməsi. - B. : Şirvannəşr, 2006. - S.89-100.

Paçxataşvili G.(Givi). Sükutun rəngləri/ G. Paçxataşvili ; red. Q. Məhərrəmli ; ön sözün müəl. İ. Kövrək. - Bakı : Adiloğlu, 2007. - 128 s.

Vahabzadə B. Şəhidlər : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.299-335.

## DÖVRİ MƏTBUATDA

Bir cavan atam vardı...: şəhid Aslan Ağaverdiyevə həsr olunur : şeir // Mədəniyyət. - 2008. - 18 yanvar. - S.3.

Bünyadzadə Ü. Vətən üçün ölməliyik ; Düşüncələrim ; Ağlaya : şeirlər // Mədəniyyət. - 2009. - 17 yanvar. - S.13.

Dəmirbəyli O. Qanlı Yanvar : 20 yanvar faciəsi haqqında şeir // Savalan. - 2009. - 16-22 yanvar. - S.4.

Əliyev O. Qərənfil : 20 Yanvar şəhidlərinə: şeir

Əliyev A. Ruhun dedikləri : rekviyem // Azərbaycan. - 2006. - 20 yanvar. - S.6.

Ərsoy M. A. Şəhidlərin şərəfinə : şeir // Azərbaycan. - 2006. - 20 yanvar. - S.5.

Feyzullayeva M. 20 Yanvar : şeir // Savalan. - 2008. - 18-21 yanvar. - S.3.

Güləmail. O gecə : 20 Yanvar müasibətilə // Güləmail. Sənli sənsiz. – B.: Qanun, 2006. – S. 21............

Hər şəhid bir zirvədir : 20 Yanvar şəhidi Azər Ələkbərovun xatirəsinə: mahnı / söz. müəl. Ə. Quluzadə ; bəst. R. Şəfəq // Savalan. - 2007.-19-22 yanvar. - S.2.

Həsənzadə N. Şəhidlər xiyabanı: şeir // Azərbaycan. - 2008. - 22 yanvar. - S.3.

Hüseyn N. O qan unudulmaz : 20 Yanvar : şeir // Savalan. - 2009. - 13-15 yanvar. - S.6.

Qabil. Gecəni atəş ilə qırmızı dan eylədilər,Xalqımı-millətimi gülləbaran eylədilər : şeir // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.4.

Qabil Mərsiyə : 20 Yanvar şəhidlərinə həsr olunur / Qabil // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S.110-111.

Qasımoğlu N. Minalar : şeir / N. Qasımoğlu // Ədəbiyyat qəzeti. - 2008. - 18 yanvar. - S.1.

Qoca Y. Qurd odası; Epiloq əvəzi : şeir / Y. Qoca // Ədəbiyyat qəzeti. - 2006. - 20 yanvar. - S.6.

Məmmədli A. Təskinlik : şeir / A. Məmmədli // Göy qurşağı. - 2009. - №1-2. - S.3.

Mirzə N. Qanlı qərənfil : Hekayə / N. Mirzə // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar. - S.6.

Mirzə V. Bu millətin ilk şəhidi sən oldun : Heydər Əliyevə həsr olunmuş şeir / V. Mirzə // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar. - S.1.

Nasir Ş. Bir şəhid pıçıltısı : ovqat / Ş. Nasir // Azərbaycan. - 2006. - 20 yanvar. – S.6.

Sadiq Ə. Şəhidlər : şeir / Ə. Sadiq // Savalan. - 2007.-19-22 yanvar. - S.1.

Sadiq Ə. Şəhidlər : şeir / Ə. Sadiq // Savalan. - 2009. - 16-22 yanvar. - S.1.

Şərifova Nüyvər. Geymə qara, ağlama : şeir / N. Şərifova // Savalan. - 2007.-19-22 yanvar. - S.3.

Vahabzadə B. Şəhidlər : poemadan parça / B. Vahabzadə // Ədəbiyyat qəzeti. - 2008. - 18 yanvar. - S.1.

Vahabzadə B. Larisa : şeir / B. Vahabzadə // Azərbaycan. - 2006. - 19 yanvar. - S.3.

Vahabzadə B. Şəhidlər : 20 Yanvara həsr olunmuş şeir / B. Vahabzadə // Ədəbiyyat qəzeti. - 2009. - 16 yanvar. - S.1.

Vəkil Ə. İyrimi Yanvar bayatıları / Ə. Vəkil // Respublika. - 2009. - 20 yanvar. - S.5.

Vəkil Ə. İyirmi Yanvar bayatıları / Ə. Vəkil // Azərbaycan. - 2007. - № 12. - S.50-52.

Yaqub M. Qalmayacaq : 20 Yanvar şəhidlərinə aid şeir / M. Yaqub // Mədəniyyət. - 2006. - 21 yanvar. - S.2.

Zəngilanlı O. Şəhidlər ölməzlərdir - ölməzi ağlamazlar : şeir / O. Zəngilanlı // Savalan. - 2007.-19-22 yanvar. - S.3.

## MƏQALƏLƏR

### KİTABLARDA

Aslan M.Qərənfil – Şəhid qanı // Aslan M. Seçilmiş əsərləri. – B. : Avrasiya Press, 2006. – S. 84-87.

Ülvi A.İgid Rüstəm – Şəhid Rüstəm // Ülvi A.Müharibə ağrılarım : sənədli publisist qeydlər, ədəbi düşüncələr. – B. : Nurlan, 2005. – S.173-176.

Ülvi A.Şəhidlik zirvəsi // Ülvi A.Müharibə ağrılarım : sənədli publisist qeydlər, ədəbi düşüncələr. – B. : Nurlan, 2005. – S.197-200.

Ülvi A.Mənəvi ağrılar dünyasında // Ülvi A.Müharibə ağrılarım : sənədli publisist qeydlər, ədəbi düşüncələr. – B. : Nurlan, 2005. – S.200-206.

DÖVRİ MƏTBUATDA

2006-cı il

Abbaslı Tahir. Gün aydın, Azadlıq gecəsi : 20 yanvar hadisələri haqqında // Mədəniyyət. - 2006. - 22 yanvar. - S.2.

Abbasov P. Xəyanəti və saxtakarlığı bağışlamaq olmaz : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 19 yanvar. - S.3.

Abdullayev M. 20 Yanvar ərəfəsində ermənilər Sədərəyi ələ keçirmək istəmişdilər // Xalq qəzeti. - 2006. - 19 yanvar. - S.3.

Alışoğlu Q. "Mən tarana gedirəm" : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 20 Yanvar. - S.6.

Baharlı M. Faciəniun əvvəli və sonu : 20 Yanvar faciəsi haq-da // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar. - S.4.

Bədəlov Ə. 1990-cı il Qanlı Yanvar faciəsindən 16 il ötür : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 20 yanvar. - S.3.

Cəfərli R. 1993-cü ilə qədər 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymətin verilməməsi xalqa qarşı xəyanət idi : H.Əliyev haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.3.

Cəfərli Y. Sonuncu məzar : 20 Yanvar faciəsi haqqında // Azərbaycan. - 2006. - 22 yanvar. - S.2.

Daşdəmirov Ə.

Unutmaq olarmı o şəhidləri?! : 20 Yanvarın məktəbli şəhidləri haq-da // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar

Elmanoğlu S. 20 Yanvar hadisələri Azərbaycan xalqının istiqlala layiq olduğunu bütün dünyaya sübuta yetirdi // Azərbaycan. - 2006. - 22 yanvar. - S.4.

Elmanoğlu S. Şərəf və qəhrəmanlıq salnaməsi // Azərbaycan. - 2006. - 17 yanvar. - S.2

Əliyev T. Bakıdan sonra hədəf Lənkəran oldu : Lənkəran şəhidləri haq-da // Xalq qəzeti. - 2006. - 27 yanvar. - S.6.

Əliyev T. 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq və demokratiya ideallarına qarşı yönəlmiş tarixi cinayət aktıdır : Arif Məlikov ittiham edir // Xalq qəzeti. - 2006. - 20 yanvar. - S.5.

Əliyev T. O müdhiş günü xatırlayanda hər şeyi qan rəngində görürəm : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 26 yanvar. - S.5.

Əliyev T. 20 yanvar faciəsinə ilk dəfə siyasi qiymət ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə verildi // Xalq qəzeti. - 2006. - 12 yanvar. - S.2.

Əliyev T. 20 yanvar faciəsi xalqımızın tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur // Xalq qəzeti. - 2006. - 15 yanvar. - S.2

Hacıalıyev E. Azərbaycanın çağdaş tarixinin qəhrəmanlıq səhifəsi : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.5.

Həsənov A.

20 Yanvar - Tariximizin sağalmaz yarası // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar. - S.2.

Xəlilzadə F. Xatirələri qəlblərdə, özləri göylərdə olanlar : şəhidlər haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.7.

Qanlı Yanvar faciəsinin 16-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti : Azərbaycan Prezidenti İ.Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir // Azərbaycan. - 2006. - 22 yanvar. - S.1.

İmanov V. 20 Yanvar faciəsi imperiya siyasətçiləri ilə daxili xəyanətkarların birgə əməli idi // Xalq qəzeti. - 2006. - 13 yanvar. - S.2.

İmanov V. 20 Yanvar qan yaddaşımızdır : Televiziyamızın enerji blokunun partladılması haq-da // Xalq qəzeti. - 2006. - 18 yanvar. - S.3.

İmanov V. 20 yanvar M.Qorbaçovun rəhbərliyi ilə planlaşdırılmış qanlı terror aktıdır // Xalq qəzeti. - 2006. - 17 yanvar. - S.3

İmanov V. Qorbaçovun generalları onun əmrini necə yerinə yetirdilər? : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 20 yanvar. - S.5.

İsayev Ə. Hadisənin ilk dövründən Gəncə öz qəti etiraz səsini ucaltdı : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.3.

"20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. - 2006. - 20 yanvar. - S.1.

"20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli 259 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının fərmanı // Azərbaycan. - 2006. - 16 noyabr. - S.1.

Qarabağlı Ş. Xalqımızın milli həmrəylik günü : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 19 yanvar. - S.3.

Qayıbov M. Dönüş nöqtəsi : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 18 yanvar. - S.2.

Qəhrəmanlıq tarixi // Tumurcuq. - 2006. - yanvar. - S.3

Mehdixanlı T. Ana borcunu qaytara bilmədi... : şəhid Mehman Muradov haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.7.\

Mehdixanlı T. Bu yanvar o yanvara oxşamırdı... : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 22 yanvar. - S.2.

Mehdixanlı T. Yadigar qalmış parta : Şəhid Larisa Məmmədova haq-da // Azərbaycan. - 2006. - 19 yanvar. - S.3.

Mədinov A. Şəhid Nazifin üçü 20 Yanvara, qırxı 26 fevrala düşmüşsü... : Nazif Mədinov haq-da / Xalq qəzeti. - 2006. - 26 fevral. - S.7.

Məmmədov Ş. 20 Yanvar mövzusu publisistika və bədii ədəbiyyatda // Azərbaycan müəllimi. - 2006. - 20 yanvar. - S.5.

Mikayıloğlu Y. Tarix xalqın qanına susayan cinayətkarları bağışlamır : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 22 yanvar. - S.4.

Nemətli F. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi : 20 yanvar haq-da // Xalq qəzeti. - 2006. - 18 yanvar. - S.3

Piriyev Q. Gəncədə yanvar qığınının qarşısı necə alındı? // Xalq qəzeti. - 2006. - 2 fevral. - S.10.

Rəşad .Şəhidləri ziyarət onlara ən kiçik borcumuzdur // Şəkər villası. - 2006. - 17-23 yanvar. - S.1.

Rzalı R. Əbədi məhəbbət dastanı : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 20 yanvar. - S.5.

Rzalı R. Mücadilə tariximizin zirvəsi : 20 Yanvar faciəsi xarici mətbuat səhifələrində // Azərbaycan. - 2006. - 19 yanvar. - S.2.

"Sənin oxşarın bənövşədi..." : Şəhid şair Ülvi Bünyadzadənin yeni kitabı çapdan çıxmışdır // Xalq qəzeti. - 2006. - 18 yanvar. - S.5.

Tahir R. Şəhidlər Xiyabanı - müqəddəs ziyarətgah : şəhidlərə həsr olunmuş ensiklopedik kitab haq-da / R. Tahir // Xalq qəzeti. - 2006. - 9 fevral. - S.4.

Tarixin "Yanvar"ı : 20 yanvar 1990-cı il... // Göy qurşağı. - 2006. - №1(6). - S.5.

Zeynalov D. Zamanın cəzası qaçılmaz və amansızdır : 20 Yanvar faciəsi haq-da // Xalq qəzeti. - 2006. - 20 yanvar. - S.6.

Vəfa Z.

Müqəddəs amallar uğrunda şəhid olanların ömrü Vətənin və xalqın ömrü qədərdir : 20 Yanvar faciəsi haq-da // Azərbaycan. - 2006. - 19 yanvar. - S.2.

**2007-ci il**

Akifqızı Ş. Virciniya FOKS: Qara yanvar gecəsi Azərbaycanın müstəqilliyi və azadlığına aparan ümid yaratmışdır : 20 Yanvar // Azərbaycan. - 2007. - 20 yanvar. - S.4.

Babanlı V. Siz ey qeyrət timsalları - Qəddarlığın qurbanları ! : (20 Yanvar şəhidlərinin əziz xatirəsinə) // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.4.

Bədəlov C. 20 Yanvar hadisələri xarici mətbuatda //Xalq qəzeti. – 2007. – 4 fevral. - S.2.

Bədəlov C. 1990-cı ilin 20 yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi oldu // Xalq qəzeti. - 2007. - 19 yanvar. - S.3.

Bədəlov Ə. Tariximizin qanlı yazılmış səhifəsi // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.4.

Cavadov S. Lənkaranlı şəhidlər // Azərbaycan. - 2007. - 17 yanvar. - S.2.

Cəfərli R. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiyməti ilk olaraq Heydər Əliyev verdi // Azərbaycan. - 2007. - 16 yanvar. - S.2.

Cəfərli R. Vaxtı ilə hakimiyyətdə olan qüvvələrin 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verməməsi xalqa qarşı xəyanət idi : Faciənin əsl qiyməti Heydər Əliyev tərəfindən verildi Azərbaycan. - 2007. - 20 yanvar. - S.2.

Elmanoğlu S. Tariximizin Qan Yaddaşı : 20 yanvar faciəsindən 17 il keçir // Azərbaycan. - 2007. - 19 yanvar. - S.2.

Əbdülrəhmanlı N. Yanvar yaddaşı : 20 yanvar faciəsi // Yaddaş. - 2007. - 18 yanvar. - S.4.

Əliyev T. Məkrli düşmən öz azadlığı uğrunda ayağa qalxan xalqın əzmini, iradəsini qıra bilmədi // Xalq qəzeti. - 2007. - 16 yanvar. - S.3.

Əliyev T. 20 Yanvar faciəsi Azərbaycan xalqının mübarizə əzmini daha da artırdı // Xalq qəzeti. - 2007. - 13 yanvar. - S.3.

Əliyev T. Cavabsız qalan suallar çox idi // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.3.

Əliyev T. 20 Yanvardan başlanan faciə // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.3.

Hacıalıyev E. Şanlı tariximizin qəhrəmanlıq səhifəsi : 20 Yanvar // Azərbaycan. - 2007. - 20 yanvar. - S.4.

Xanlaroğlu V. Hər şeyin bitdiyi və başlandığı gün : 20 Yanvar şəhidlərin yazdığı məşəqqətli tarixdir // Yeni Azərbaycan. - 2007. - 20 yanvar. - S.5.

Xəlilzadə F. Yuxusu dağılmış şəhər : 20 Yanvar // Azərbaycan. - 2007. - 20 yanvar. - S.1.

Xəlilzadə F. Haqqa körpü salanlar : 20 Yanvar faciəsindən 17 il keçir // Azərbaycan. - 2007. - 17 yanvar. - S.2.

20 yanvar faciəsindən 17 il ötür : Baş məqalə // Planet. - 2007. - 16-22 yanvar. - S.1.

20 Yanvar - tarixin qanlı faciəsi // Savalan. - 2007.-19-22 yanvar. - S.3.

İmanov V. 20 Yanvar qırğını tıųrədənləri ittiham etmək üçün yetərincə fakt var // Xalq qəzeti. - 2007. - 14 yanvar. - S.3.

İmanov V. M.Qorbaçovun xalqımızın qanlı divantutma aksiyası : 20 yanvar - qan yaddaşımız // Xalq qəzeti. - 2007. - 18 yanvar. - S.3.

İsayev Ə. Cəsarət və hünər zirvəsi // Azərbaycan. - 2007. - 20 yanvar. - S.5.

İmanov V. 20 Yanvar hadisələri xalqın azadlıq və müstəqillik əzmini daha da gücləndirdi // Xalq qəzeti. - 2007. - 20 yanvar. - S.1.

Qaraxanlı R. Torpağımızın Vətənləşdiyi gün... // Azərbaycan. - 2007. - 20 yanvar. - S.3.

Qasımzadə Nigar. 20 Yanvar günü // Yeni Azərbaycan. - 2007. - 20 yanvar. - S.6.

Mehdixanlı T. Amansız hərbçilər gözü görməyən Borisi də güllələdilər // Azərbaycan. - 2007. - 20 yanvar. - S.4.

Mehdixanlı T. Vətən uğrunda şəhid olanlar unudulmurlar // Azərbaycan. - 2007. - 24 yanvar. - S.5.

Milli qeyrət günümüz : 1990-cı il 20 Yanvar hadisələri // Tumurcuq. - 2007. - yanvar. - S.3.

Mustafayev S. Müqəddəs ziyarətgah : 20 Yanvar faciəsindən 17 il keçir // Azərbaycan. - 2007. - 18 yanvar. - S.4.

Mirzəyev N. Müqəddəs and yerimiz : 1990-cı il 20 yanvar faciəsi // Azərbaycan müəllimi. - 2006. - 19 yanvar. - S.1.

Nəsibli E. Xalqımızın azadlıq əzmini qırmaq mümkün deyil // Azərbaycan. - 2007. - 20 yanvar. - S.3.

Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır : Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir // Xalq qəzeti. - 2007. - 23 yanvar. - S.5.

Səfərova S. 20 Yanvar - tariximizin sağalmaz yarası. : o gecə neçə ömür kitabı yarımçıq qaldı... // Azərbaycan müəllimi. - 2007. - 19 yanvar. - S.3.

Tariximizin qan yaddaşı : 20 Yanvar faciəsinin 17-ci ildönümü xarici ölkələrdə də qeyd olunmuşdur // Azərbaycan. - 2007. - 24 yanvar. - S.5.

Turanə. 20 Yanvar-Azərbaycan xalqının tarixinə və yaddaşına qanla yazılıb / Turanə // Yeni Azərbaycan. - 2007. - 20 yanvar. - S.6.

Zeynallı Z. "Efirin göz yaşları" : Qara yanvardan 17 il keçir // Yeni Azərbaycan. - 2007. - 18 yanvar. - S.5.

**Tərtib edən: Könül Səmədzadə - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı**

**Ə dəbiyyat siyahısını tərtib edən: Sevil Əhmədova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin müdiri**

**Redaktor: Fizurə Quliyeva - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**MÜNDƏRİCAT**

**1.Tərtibçidən........................................................................................ .3**
**2. I Bölmə: 20 yanvardan başlanan faciə.................................................. .4**
**3. II Bölmə: Faciənin 20-ci ildönümü əlaqədar keçiriləntədbirlər.......... 9**
**tədbirlər.**
**4. Ədəbiyyat siyahısı.........................................................................28**